# Əhalinin rifahının yaxşılaşdırılmasına yönələn uğurlu sosial siyasət

**Azərbaycan vətəndaşlarının sosial müdafiəsi, rifahı, əhalinin aztəminatlı təbəqələrinə xüsusi qayğı və diqqət göstərilməsi Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin prioritet istiqamətlərindəndir. Ölkə başçısı bütün çıxış və müsahibələrində söyləyir ki, bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. 2018-ci ildə növbəti dəfə xalqın böyük etimadını qazanaraq Azərbaycan Respublikasına rəhbər seçilən cənab İlham Əliyev dərin islahatlara start verdi. İqtisadi islahatlardan sonra 2019-cu ilin əvvəllərində sosial islahatlara başlanıldı.**



Musa URUD,
millət vəkili.

Bu sosial islahatlar cənab Prezidentin 30-a yaxın fərman və sərəncamını özündə birləşdirən iki böyük sosial islahatlar zərfində toplanmış oldu. Həmin dövrdə Azərbaycanda inqilabi xarakterli sosial islahatlar aparıldı; əməkhaqları, pensiyalar, sosial müavinətlər, təqaüdlər artırıldı və istər minimum əməkhaqqının, istərsə də orta aylıq pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında ön sıralardan birini tutdu və indiyə qədər də bu öncüllüyünü saxlayır.

Cənab Prezidentin sosial müdafiə strategiyası koronavirus pandemiyası başlayan dövrdə də davam etdirildi. Vətəndaşlarımızın pandemiyadan az əziyyət çəkməsi, onların sosial vəziyyətinin qorunub saxlanılması məqsədilə cənab Prezident fərman və sərəncamlar imzaladı. Həmin fərman və sərəncamlar nəticəsində 1 milyard manatdan artıq vəsait vətəndaşlarımızın sosial rifah halına yönəldildi və 4 milyona yaxın insanın sosial müdafiəsi təmin olundu. Həmin siyasət müharibə və postmüharibə dövründə də davam etdi. Postmüharibə dövrünün əsas istiqamətlərindən biri müharibədə həlak olmuş əsgər və hərbçilərimizin ailə üzvlərinin sosial müdafiəsi, şəhid ailələrinin, eyni zamanda qazilərin və müharibə veteranlarının sosial müdafiəsidir ki, bu istiqamətdə də onların sığorta, pensiya, təqaüd təminatı, sosial və tibbi reabilitasiyası, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kredit borclarının bağlanması və s. kimi böyük işlər görülüb. Koronavirus pandemiyası ilə bağlı dünya iqtisadiyyatında çoxlu zəifləmə və geriləmə səbəbindən 2021-ci ilin əvvəllərindən dünyada bir çox ərzaq mallarının, xidmətlərin, o cümlədən enerji daşıyıcılarının qiyməti artdı. Bu artımlar 2021-ci ilin 2-ci yarısından başlayaraq Azərbaycanın da sosial-iqtisadi həyatına öz mənfi təsirini göstərdi və müəyyən bahalaşmalara gətirib çıxartdı.

Vətəndaşların sosial rifah halını yaxşılaşdırmaq məqsədilə cənab Prezident bu il oktyabr ayının 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzaladı və həmin sərəncamda həm dövlət büdcəsindən vəsait ayrılması, həm də Nazirlər Kabineti tərəfindən müəyyən tədbirlərin görülməsi üçün tapşırıqlar öz əksini tapmış oldu. Buna görə də 2022-ci ilin dövlət büdcəsi müstəqillik tariximizin ən irihəcmli sosialyönümlü dövlət büdcəsi kimi qəbul olundu və dövlət büdcəsinin böyük bir hissəsi - 46.4%-i sosial sahənin maliyyələşməsinə yönəlmiş oldu.

Cənab Prezidentin fərman və sərəncamlarına əsasən gələn il yanvarın 1-dən bütün sosial ödənişlərin artımı nəzərdə tutulur. Ötən həftə verilən sərəncamla Azərbaycan Respublikasında minimum əməkhaqqı 250 manatdan 300 manata qalxdı. Büdcə təşkilatlarında çalışan 400 min, özəl sektorda çalışan 400 min-ə yaxın insanın əməkhaqqının artırılması yanvarın 1-dən təmin olunacaq. Eyni zamanda, cənab Prezidentin imzaladığı digər bir sərəncamla müəllimlərin, təhsil sahəsində çalışan işçilərin və dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatlarda çalışan insanların da əməkhaqqı artırıldı.

Cənab Prezidentin bu günlərdə imzaladığı sərəncamla isə sosial müdafiəyə ehtiyacı olan böyük bir qrupun müavinət, pensiya və təqaüdləri artırıldı, daha 732 min şəxsin sosial müdafiəsi gücləndirilmiş oldu. Bu məqsədlə dövlət büdcəsindən əlavə 200 milyon manat ayrılması nəzərdə tutulur. Bu fərman və sərəncamlarla bir çox kateqoriyadan olan şəxslərin təqaüdləri, müavinətləri artırılır. İlk növbədə, əlilliyi olan şəxslər və I dərəcəli əlilliyi olan şəxslərə qulluq edən şəxslərin müavinətləri, yaşa görə müavinətlər, ailə başçısını itirməyə görə müavinətlər, müddətli hərbi xidmətdə olanların uşaqlarına verilən müavinətlər, uşaqların qəyyumlarına verilən müavinətlər, beşdən çox uşağı olan qadınlara verilən müavinətlər, aztəminatlı ailələrin 1 yaşınadək uşağına verilən müavinət, övladlığa uşaq götürənlərə verilən müavinətlər, işləməyən pensiyaçı elmlər və fəlsəfə doktorlarının təqaüdləri, Xalq və Əməkdar artist fəxri adı olanların təqaüdləri, doktorantların və tələbələrin təqaüdləri artırılır. Eyni zamanda, uşağın doğulmasına görə birdəfəlik müavinətin və dəfn üçün müavinətin də artırılması nəzərdə tutulur. Cənab Prezidentin əhalinin sosial rifah halının qorunması haqqında bu il oktyabrın 16-da qəbul etdiyi sərəncamın icrasından doğan məsələləri əhatə edən bu sərəncam ümumilikdə Azərbaycanda daha 732 min insanın həyat səviyyəsini yaxşılaşdıracaqdır. ■